**MONT Technology MMC-nin Direktoru Həsənov Rövşənin 01/23 saylı 13 dekabr 2023-cü il tarixli Əmrinə əsasən tərtib edilmişdir.**

**Mont Technology MMC-nin**
**Direktoru**
**_______________ R.Həsənov**

# "MONT TECHNOLOGY" MMC-nin antikorrupsiya siyasəti

## 1. SƏNƏDİN TƏYİNATI, ÜMUMİ MÜDDƏALAR

*1.1. Hazırkı "Antikorrupsiya siyasəti haqqında" Əsasnamə (bundan sonra "Əsasnamə") vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, qanunilik, qayda-qanun və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə işlənib hazırlanmışdır və "MONT TECHNOLOGY" MMC-nin korrupsiyanın qarşısının alınması və rəhbərlik, işçilər və "MONT TECHNOLOGY" MMC-nin adından hərəkət edə bilən digər şəxslər tərəfindən tətbiq edilən antikorrupsiya normalarına riayət olunmasına yönəldilmiş başlıca prinsip və tələbləri müəyyən edən lokal sənədidir.*

*1.2. Əsasnamə Korrupsiyaya qarşı mübarizə haqqında AZƏRBAYCAN RESPUBLİKASININ 580 IIQ saylı 13 yanvar 2014-cü il tarixli QANUNUNA müvafiq olaraq işlənib hazırlanmışdır.*

*1.3. "MONT TECHNOLOGY" MMC-nin antikorrupsiya tədbirləri:*

*- korrupsiyanın qarşısının alınması, o cümlədən, korrupsiya səbəblərinin aşkarlanması və sonradan aradan qaldırılması (korrupsiyanın profilaktikası);*

*- korrupsiya hüquq pozuntularının aşkarlanması, qarşısının alınması, aradan qaldırılması, açılması və araşdırılması (korrupsiyaya qarşı mübarizə);*

*- korrupsiya hüquq pozuntularının nəticələrinin minimallaşdırılması və (və ya) ləğvinə yönəldilmişdir.*

## 2. ƏSASNAMƏDƏ TƏTBİQ EDİLƏN ƏSAS ANLAYIŞLAR

2.1. Bu əsasnamənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

**Korrupsiya** – "MONT TECHNOLOGY" MMC-də işləyən şəxslərin öz vəzifə səlahiyyətləri və onlarla bağlı imkanlardan istifadə etməklə öz maraqlarında, eləcə də digər şəxslərin maraqlarında şəxsən və ya vasitəçilərin köməyi ilə əmlak nemətləri qəbul etməsi, eləcə də həmin şəxslərin fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən nemət və üstünlüklərin qeyri-qanuni üsulla onlara təqdim edilməsiyolu ilə satın alınması;

**Antikorrupsiya siyasəti** – "MONT TECHNOLOGY" MMC-nin korrupsiyaya qarşı effektiv qarşıdurma sistemininyaradılmasına yönəldilmiş fəaliyyəti;

**Korrupsiya hüquq pozuntusu** – törədilməsinə görə normativ hüquqi aktla mülki-hüquq, intizam, inzibati və ya cinayət məsuliyyətinin nəzərdə tutulduğu, korrupsiya əlamətlərinə malik əməl;

**Korrupsiya amili** – korrupsiya hüquq pozuntuları doğuran və ya onların yayılmasına yardım edən hal və ya halların məcmusu;

**Korrupsiyanın qarşısının alınması** – "MONT TECHNOLOGY" MMC-nin korrupsiya hüquq pozuntuları doğuran və ya onların yayılmasına yardım edən halların aşkarlanması, öyrənilməsi, məhdudlaşdırılması və ya aradan qaldırılmasına yönəldilmiş antikorrupsiya siyasəti ilə bağlı fəaliyyəti;

**Maraqların münaqişəsi** – Təşkilatın işçisinin şəxsi marağının (birbaşa və ya dolayısı) onun tərəfindən vəzifə borclarının lazımi şəkildə yerinə yetirilməsinə təsir göstərdiyi və ya təsir göstərə biləcəyi və işçinin şəxsi maraqları və vətəndaşlar, təşkilatlar, cəmiyyət və ya dövlətin hüquqları və qanuni maraqları arasında vətəndaşlar, təşkilatlar, cəmiyyət və ya dövlətin hüquqları və qanuni maraqlarına zərərin dəyməsinə səbəb olmaq iqtidarında olan ziddiyyətin yarandığı və ya yarana biləcəyi vəziyyət.

**İşçinin şəxsi maraqları** – işçi tərəfindən vəzifə borclarının icrası zamanı özü və ya üçüncü şəxslər üçün pul, dəyərlilər, digər əmlak və ya əmlak xarakterli xidmətlər, digər əmlak hüquqları şəklində gəlirlər əldə etmək mümkünlüyü.

**Təşkilatın işçiləri (əməkdaşları)** – əmək müqaviləsi əsasında təşkilatla əmək münasibətlərində olan fiziki şəxslər.

**Xəbərdarlıq** – əməkdaşın işçinin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilmə məqsədilə ona müraciətin edilməsi haqqında məlumatı.

## 3. ƏSASNAMƏNİN MƏQSƏDLƏRİ

3.1. Əsasnamə "MONT TECHNOLOGY" MMC və onun rəhbərliyinin göstərilən xidmətlər, yerinə yetirilən işlər, təşkilat üçün müəyyən edilən tariflər haqqında informasiyanın açıq təqdim edilməsinin yüksək etikstandartları və prinsiplərinə bağlılığı, eləcə də "MONT TECHNOLOGY" MMC-nin korporativ mədəniyyətin təkmilləşdirilməsinə, ən yaxşı korporativ idarəetmə praktikalarına riayət olunması və təşkilatın işgüzar reputasiyasının lazımi səviyyədə qorunub saxlanmasına çalışmasını əks etdirir.

3.2. "MONT TECHNOLOGY" MMC qarşısına aşağıdakı məqsədləri qoyur:

- təşkilatın – rəhbərlik və tutduğu vəzifədən asılı olmayaraq işçilərin (əməkdaşların) korrupsiya fəaliyyətinə cəlb edilməsi riskini minimallaşdırmaq;

- Azərbaycan Respublikasının antikorrupsiya qanunvericiliyinin "MONT TECHNOLOGY" MMC və əməkdaşlara
tətbiq edilə biləcək əsas tələblərini ümumiləşdirmək və izah etmək;

- əməkdaşların üzərinə bu Əsasnamənin prinsip və tələblərinə, tətbiq edilən antikorrupsiya qanunvericiliyinin başlıca normaları, eləcə də korrupsiyanın qarşısının alınması üçün adekvat tədbirləri bilmək və onlara riayət etmək vəzifəsi qoymaq.

3.3. Tələblərə əməl olunması haqqında istənilən növdə xəbər əleyhinə repressiyaya qarşı sənədləşdirilmiş və realizə olunmuş siyasət

## 4. ƏSASNAMƏNİN PRİNSİPLƏRİ

4.1. "MONT TECHNOLOGY" MMC-nin bütün işçiləri bu Əsasnaməni rəhbər tutmalı və onun prinsip və tələblərinə şərtsiz riayət etməlidirlər.

4.2. "MONT TECHNOLOGY" MMC-nin direktoru antikorrupsiya tədbirlərinin işlənib hazırlanması, onların tətbiqvə nəzarətinə görə məsul şəxslərin təyin edilməsi də daxil olmaqla bu Əsasnamənin prinsip və tələblərinin gerçəkləşdirilməsinə yönəldilmiş bütün tədbirlərin təşkilinə görə cavabdehlik daşıyır.

4.3. Bu Əsasnamənin prinsip və tələbləri "MONT TECHNOLOGY" MMC-nin kontragentləri və nümayəndələri, eləcə də müvafiq vəzifələrin digər şəxslərlə müqavilələrdə, onların daxili sənədlərində təsbit edildiyi və ya qanundan birbaşa irəli gəldiyi hallarda həmin şəxslərə şamil edilir.

4.4. "MONT TECHNOLOGY" MMC-nin Baş direktoru öz davranışı ilə nümunə olaraq və

bütün işçilər və kontragentlərin antikorrupsiya siyasəti ilə tanışlığını həyata keçirərək, korrupsiyanın istənilən forma və təzahürləri ilə barışmaz münasibətin etik standartını formalaşdırır.

4.5. Qarşıdurma tədbirləri sisteminin yaradılması zamanı "MONT TECHNOLOGY" MMC korrupsiyaya qarşı
mübarizənin aşağıdakı başlıca prinsiplərinə əsaslanır:

4.5.1. Təşkilatın işinin qüvvədə olan qanunvericilik və ümumi qəbul edilmiş normalara uyğunluğu prinsipi. Həyata keçirilən antikorrupsiya tədbirlərinin Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunvericiliyi və müəssisəyə tətbiq edilən digər normativ hüquqi aktlara müvafiqliyi prinsipi.

4.5.2. Rəhbərliyin şəxsi nümunəsi prinsipi. Təşkilat rəhbərliyinin təşkilatdaxili korrupsiyaya dözümsüzlük mədəniyyətinin formalaşması və korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sisteminin yaradılmasında başlıca rolu.

4.5.3. İşçilərin cəlb edilməsi prinsipi. Təşkilatın işçilərinin antikorrupsiya qanunvericiliyinin müddəaları haqqında məlumatlılığı və onların antikorrupsiya standart və prosedurlarının formalaşma və gerçəkləşdirilməsində fəal iştirakı.

4.5.4. Antikorrupsiya prosedurlarının korrupsiya risklərinə mütənasibliyi prinsipi. Təşkilat, onun rəhbərliyi və əməkdaşlarının korrupsiya fəaliyyətinə cəlb edilməsi ehtimalını azaltmağa imkan verən tədbirlər kompleksinin işlənib hazırlanması və yerinə yetirilməsi təşkilatın fəaliyyətində mövcud olan korrupsiya riskləri nəzərə alınmaqla həyata keçirilir.

4.5.5. Antikorrupsiya prosedurlarının effektivliyi prinsipi. Müəssisədə aşağı dəyərə malik antikorrupsiya tədbirlərinin tətbiqi həyata keçirilmə sadəliyini təmin edir və nəzərəçarpacaq nəticə gətirir.

4.5.6. Məsuliyyət və cəzaların qaçılmazlığı prinsipi. Tutduqları vəzifə, iş stajı və digər şərtlərdən asılı olmayaraq təşkilatın əməkdaşları tərəfindən əmək vəzifələrinin icrası ilə bağlı korrupsiya hüquq pozuntularının törədildiyi halda, onlar üçün cəzanın qaçılmazlığı, eləcə də təşkilatın rəhbərliyinin təşkilatdaxili antikorrupsiya siyasətinin gerçəkləşdirilməsinə görə şəxsi məsuliyyəti.

4.5.7. Şəxsi nəzarət və müntəzəm monitorinq prinsipi. Tətbiq edilmiş antikorrupsiya standart və prosedurlarının effektivliyinin monitorinqinin, eləcə də onların icrasına nəzarətin müntəzəm həyata keçirilməsi.

## 5. ANTİKORRUPSİYA QANUNVERİCİLİYİ

5.1. "MONT TECHNOLOGY" MMC, bütün əməkdaşlar daxil olmaqla, əsas tələbləri rüşvət verməyin qadağan olunması, rüşvət almağın qadağan olunması, kommersiya ələ keçirməsinin qadağan olunması və rüşvətxorluqda vasitəçiliyin qadağan olunmasından ibarət olan Azərbaycan antikorrupsiya qanunvericiliyi, o cümlədən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati xətalar məcəlləsi, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun, bu Əsasnamə və digər normativ aktlarla müəyyən edilmiş normalara riayət etməlidirlər.

5.2. Qeyd edilənlər nəzərə alınmaqla, **"MONT TECHNOLOGY" MMC-nin bütün əməkdaşlarına** birbaşa və ya dolayısı ilə, şəxsən və ya üçüncü şəxslərin vasitəçiliyi ilə korrupsiya hərəkətlərində iştirak etmək, kommersiya təşkilatları, hakimiyyət və özünüidarəetmə orqanları, dövlət qulluqçuları, xüsusi şirkətlər və onların nümayəndələri də daxil olmaqla hər

hansı bir şəxslərə rüşvət təklif etmək, vermək, vəd etmək, istəmək və hər hansı bir şəxslər və ya təşkilatlardan rüşvət almaq və yaxud
inzibati, bürokratik və istənilən formada, o cümlədən, pul vəsaiti, dəyərlilər, xidmətlər və ya digər fayda formasında digər rəsmiyyətlərin sadələşdirilməsi üçün ödənişlər etmək **qəti qadağandır**.

## 6. İŞGÜZAR HƏDİYYƏLƏR VƏ İŞGÜZAR QONAQPƏRVƏRLİK NİŞANƏLƏRİNİN MÜBADİLƏSİ. TƏMSİLÇİLİK XƏRCLƏRİ.

6.1. Bağışlanmalı olan işgüzar hədiyyələr və işgüzar qonaqpərvərlik nişanələri:

- Azərbaycan Respublikasının antikorrupsiya qanunvericiliyinin, təşkilatın lokal normativ aktları, bu Əsasnamənin tələblərinə müvafiq olmalı;

- yalnız şirkətin adından təqdim edilməli və göstərilməli;

- "MONT TECHNOLOGY" MMC-nin fəaliyyətinin qanuni məqsədləri və ümummilli bayramlarla (Yeni İl, 8 mart, 23 fevral və s.) birbaşa bağlı və təşkilatın maliyyə vəziyyətinə müvafiq olaraq tətbiq edilə bilən olmalı;

- əsaslı, mütənasib olmalı və dəbdəbə predmeti olmamalı. Hədiyyənin qiyməti 60,00 (altmış) manatdan artıq olmamalı (AR MM-ə əsasən);

- "MONT TECHNOLOGY" MMC-nin Baş direktoru ilə razılaşdırılmaqla əldə edilməli;

- xidmət, hərəkət, hərəkətsizlik, səhlənkarlıq, himayədarlıq, hüquqların təqdim edilməsi, əqd, razılaşma, icazəyə dair müəyyən qərarın qəbul edilməsinə və s. görə gizli mükafatdan və yaxud digər qeyri-qanuni və ya qeyri-etik məqsədlə alana təsir göstərmək cəhdindən ibarət olmamalıdır.

6.2. Bağışlanmalı olan işgüzar hədiyyələr və işgüzar qonaqpərvərlik nişanələri:

- alan üçün onun vəzifə borcu və ya onun tərəfindən xidməti (vəzifə) borcların icrası ilə bağlı öhdəliklər yaratmamalı;

- xidmət, hərəkət və ya hərəkətsizlik, səhlənkarlıq və ya himayədarlıq, hüquqların təqdim görə gizli mükafatdan, hüquqların təqdim edilməsi və ya müəyyən qərarların qəbul edilməsi, yaxud digər qeyri-qanuni və ya qeyri-etik məqsədlə alana təsir göstərmək cəhdindən ibarət olmamalı;

- nağd, nağdsız pul vəsaiti, qiymətli kağızlar, qiymətli metallar formasında olmamalı;

- hədiyyələr və təmsilçilik xərclərinə dair informasiyanın açıqlandığı halda, "MONT TECHNOLOGY" MMC, əməkdaşlar və digər şəxslər üçün reputasiya riski yaratmamalı;

- dövlət məmurları və ya hökumət nümayəndələri, siyasətçilər və ya siyasi partiyalar tərəfindən təqdim və ya qəbul edilməməlidir.

6.3. Azərbaycan Respublikasının antikorrupsiya qanunvericiliyi, bu Əsasnamə, təşkilatın lokal normativ aktlarının tələblərinə zidd olmadığı halda, təşkilat işçiləri hədiyyələri, işgüzar qonaqpərvərlik nişanələrini yalnız rəsmi tədbirlərdə ala bilərlər.

6.4. İşgüzar hədiyyə və ya işgüzar qonaqpərvərlik nişanələrinin alınması zamanı təşkilatın işçisi bu Əsasnamə, təşkilatın digər lokal normativ aktlarına müvafiq olaraq maraqların münaqişəsinin yaranması mümkünlüyünə yol verməmək üçün tədbirlər görməlidir.

6.5. İşgüzar hədiyyənin və ya işgüzar qonaqpərvərlik nişanələrinin alınması zamanı maraqların münaqişəsinin və ya maraqların münaqişəsinin yaranması mümkünlüyünün yarandığı halda, təşkilatın işçisi maraqların münaqişəsinin açıqlanması proseduruna müvafiq olaraq təşkilatın korrupsiyaya qarşı mübarizəyə görə məsul struktur bölməsi və ya vəzifəli şəxsini yazılı formada xəbərdar etməlidir.

6.6. Təşkilatın işçilərinə qadağandır:

- təşkilatlar və ya üçüncü şəxslərdən işgüzar danışıqların aparılması zamanı, müqavilələrin bağlanması zamanı, eləcə də bu cür hərəkətlərin qəbul edilən qərarlara təsir göstərə bildiyi və ya onların təsir göstərməsi təəssüratı yaratdığı digər hallarda işgüzar hədiyyələrin təqdim edilməsi və işgüzar qonaqpərvərlik nişanələrinin göstərilməsinə dair təkliflər, işgüzar hədiyyələr və işgüzar qonaqpərvərlik nişanələri qəbul etmək;

- təşkilat və ya üçüncü şəxslərdən onlara və ya onların qohumlarına işgüzar hədiyyələr bağışlamağı və/və ya onların xeyrinə işgüzar qonaqpərvərlik nişanələri göstərməyi xahiş etmək, tələb etmək, məcbur etmək;

- nağd, nağdsız pul vəsaiti, qiymətli kağızlar, qiymətli metallar formasında hədiyyələr qəbul etmək.

6.7. Bu Əsasnamənin 6.1, 6.2 bəndlərinə müvafiq olmayan işgüzar hədiyyə almış təşkilat işçisi bu barədə məlumat verməli və işgüzar hədiyyəni öz rəhbərinə təhvil verməlidir.

## 7. XEYRİYYƏÇİLİK TƏDBİRLƏRİNDƏ VƏ SPONSORLUQ FƏALİYYƏTİNDƏ İŞTİRAK

7.1. "MONT TECHNOLOGY" MMC təşkilatın maliyyə vəziyyətindən mütənasib asılılıqda xeyriyyəçilik tədbirləri və sponsorluq fəaliyyətində iştirak haqqında qərar qəbul edə bilər. Bu zaman tədbir və fəaliyyətdə iştirak büdcəsi və planı "MONT TECHNOLOGY" MMC-nin Baş direktoru ilə razılaşdırılır.

## 8. DÖVLƏT QULLUQÇULARI İLƏ QARŞILIQLI FƏALİYYƏT

8.1. "MONT TECHNOLOGY" MMC təşkilat üçün kommersiya fəaliyyətində üstünlüklər əldə etmək və ya saxlamaq məqsədilə dövlət qulluqçuları və onların yaxın qohumlarının əvəzinə (və ya onların maraqlarında) istənilən xərclərin (pul mükafatı, ssudalar, xidmətlər, əyləncələr, istirahət, nəqliyyat xərclərin haqqını və digər haqların) müstəqil şəkildə və ya öz işçiləri vasitəsilə ödənişini həyata keçirməməlidir.

8.2. Təşkilatın işçiləri qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq dövlət qulluqçuları ilə müstəqil qarşılıqlı fəaliyyət zamanı korrupsiya təzahürlərinə görə müstəqil məsuliyyət daşıyırlar.

## 9. ƏMƏKDAŞLARLA QARŞILIQLI FƏALİYYƏT

9.1. "MONT TECHNOLOGY" MMC öz əməkdaşlarını başlıca prinsiplər, tələblər və pozuntuya görə tələblər haqqında məlumatlandırmaqla, bu Əsasnaməyə riayət etməyi tələb edir.

9.2. “MONT TECHNOLOGY” MMC-də təşkilatı rəhbərliyinin kommersiya təşkilatının maraqlarında və ya onun adından xidmətlər göstərən şəxslər tərəfindən rüşvətxorluq faktları haqqında təhlükəsiz, məxfi vəəlçatan vasitələrlə məlumatlandırılması (rəisin və ya antikorrupsiya siyasətinə riayət olunmasına görə məsul şəxsin adına yazılı ərizə və ya şəxsi müraciət; telefon və ya faksimil rabitə ilə məlumatlar; elektron poçt) təşkil edilir. Təşkilatın Baş direktorunun ünvanına antikorrupsiya tədbirləri və nəzarətin yaxşılaşdırılması təklifləri, eləcə də işçilər və üçüncü şəxslər tərəfindən sorğular daxil ola bilər.

9.3. Antikorrupsiya mədəniyyətinin lazımi səviyyəsinin formalaşdırılması üçün yeni əməkdaşlarla bu Əsasnamə və onunla bağlı sənədlərə dair giriş təlimatı aparılır, işləyən əməkdaşlar üçünsə periodik məlumatlandırma tədbirləri həyata keçirilir.

9.4. “MONT TECHNOLOGY” MMC-də əməkdaşların korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə iləbağlı aşağıdakı vəzifələri təsbit edilmişdir:

- təşkilatın maraqlarında və ya onun adından korrupsiya hüquq pozuntularının törədilməsindən və (və ya) törədilməsində iştirakdan çəkinmək;

- ətrafdakılar tərəfindən təşkilatın maraqlarında və ya onun adından korrupsiya hüquq pozuntularını törətmək və ya onların törədilməsində iştiraka hazırolma kimi başa düşülə biləcək davranışdan çəkinmək;

- bilavasitə rəhbəri/antikorrupsiya siyasətinə riayət olunmaya görə məsul şəxsi/“MONT TECHNOLOGY” MMC- nin rəhbərliyini işçinin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilməsi halları haqqında dərhal məlumatlandırmaq;

- bilavasitə rəhbəri/antikorrupsiya siyasətinə riayət olunmaya görə məsul şəxsi/“MONT TECHNOLOGY” MMC- nin rəhbərliyini işçiyə təşkilatın digər işçiləri, kontragentləri və ya digər şəxslər tərəfindən korrupsiya hüquq pozuntularının törədilməsi halları haqqında məlum olmuş informasiya haqqındadərhal məlumatlandırmaq;

- bilavasitə rəhbəri və ya digər məsul şəxsə işçidə maraqlar münaqişəsinin yaranması mümkünlüyü və ya yaranması haqqında məlumat vermək.

9.5. Təşkilatına işçisinə korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilmə məqsədilə müraciətin daxil olduğu halda, təşkilatın qeyd edilən işçisi işəgötürəni dərhal şifahi şəkildə xəbərdar etməlidir. Təşkilatın işçisi bir iş günü ərzində işəgötürənə yazılı formada bildiriş göndərməlidir.

Qeyd edilən müddətdə bildirişin göndərilməsinin mümkün olmadığı halda (xəstəlik, ezamiyyət, məzuniyyət və s. səbəbindən), təşkilatın işçisi iş yerinə gəldikdən sonra bir iş günü ərzində işəgötürənə bildiriş göndərir.

9.6. Bildirişdə aşağıdakı məlumatlar əks olunmalıdır:

- bildiriş verənin soyadı, adı, ata adı, əlaqə telefonu, eləcə də bildiriş verənin fikrincə, onunla əlaqə qurmağa kömək edəcək digər informasiya;

- əvəzləşdirici vəzifə;

- korrupsiya hüquq pozuntularının törədilməsinə sövqetmə məqsədləri ilə müraciətin baş verdiyi hallar;

- korrupsiya hüquq pozuntularının törədilməsinə sövqetmə məqsədləri ilə müraciətlə çıxış etmiş şəxs (fiziki və ya hüquqi) haqqında məlum informasiya;

- müraciətin mahiyyətinin şərh edilməsi (müraciət tarixi və yeri, hansı hərəkətin (hərəkətsizliyin) törədilməsinə sövq edilir, təklif olunmuş fayda, ehtimal olunan nəticələr, müraciətin digər halları);

- mövcud olduqları halda, bu işə aidiyyəti olan şəxslər və şahidlər haqqında məlumatlar;

- prokurorluq orqanları və ya digər dövlət orqanlarının korrupsiya hüquq pozuntularının törədilməsinə sövq etmə məqsədilə müraciət haqqında məlumatlandırılmasına dair məlumatlar (mövcud olduğu halda);

- mahiyyəti üzrə araşdırma üçün maraq kəsb edən digər məlum informasiya;

- bildiriş verənin imzası;

- bildirişin tərtib edilməsi tarixi.

9.7. İşəgötürən bildirişi nəzərdən keçirir və onu bildirişin alındığı tarixdə qeydiyyat jurnalında (daha sonra – jurnal) (bu Əsasnaməyə əlavə) qeydiyyata alınması və işçilərin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilməsi məqsədilə müraciət faktları haqqında bildirişlərin uçotu üçün təşkilatda korrupsiyaya qarşı mübarizəyə görə məsuliyyət daşıyan struktur bölmə və ya vəzifəli şəxsə ötürür.

Anonim bildirişlər məlumat üçün təşkilatda korrupsiyaya qarşı mübarizəyə görə məsuliyyət daşıyan struktur bölmə və ya vəzifəli şəxsə ötürülür.

Anonim bildirişlər jurnalda qeydə alınır, lakin baxış üçün qəbul edilmir.

9.8. Bildirişdə əks olunan məlumatların yoxlanması bildirişin qeydiyyatı tarixindən on beş iş günü ərzində həyata keçirilir.

9.9. Yoxlamanın təşkili məqsədilə işəgötürən üç iş günü ərzində təşkilatın işçisinin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilməsi məqsədilə müraciət faktının yoxlanması üzrə komissiya (bundan sonra – komissiya) yaradır.

9.10. Komissiyanın şəxsi heyəti (komissiyanın sədri, sədr müavini, üzvləri və katibi) işəgötürən tərəfindən təyin edilir və təşkilatın hüquqi aktı ilə təsdiq edilir.

9.11. Yoxlama zamanı aşağıdakılar müəyyən edilməlidir:

- şəxsin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilmək məqsədilə təşkilatın işçisinə müraciət etməsinə yardım etmiş səbəb və şərtlər;

- təşkilatın işçisinin qeyri-qanuni icrasına cəlb edilməyə cəhd edildiyi hərəkətlər (hərəkətsizlik).

9.12. Komissiyanın yoxlama nəticələri işəgötürənə yoxlamanın sona çatdığı tarixdən üç gün müddətində yazılı rəy formasında təqdim edilir.

Rəydə aşağıdakılar göstərilir:

- komissiyanın tərkibi;

- yoxlamanın aparılması müddətləri;

- bildirişi tərtib edən şəxs və yoxlamanın aparılması üçün əsas kimi xidmət etmiş hallar;

- bildirişin tərtib edilməsi üçün əsas kimi xidmət etmiş faktın düzgünlüyünün təsdiq edilməsi (və ya təkzib edilməsi);

- təşkilatın işçisinin korrupsiya hüquq pozuntularının törədilməsinə cəlb edilməsi məqsədilə müraciətinə yardım etmiş səbəblər və hallar.

9.13. Təşkilatın işçisinin korrupsiya hüquq pozuntularının törədilməsinə cəlb edilməsi məqsədilə müraciət faktının mövcud olmasının təsdiq edildiyi halda, komissiya tərəfindən rəyə işəgötürənin korrupsiya hüquq pozuntusuna yol verməmək üçün tədbirlərin tətbiq edilməsi ilə bağlı tövsiyələr çıxarılır. İşəgötürən tərəfindən informasiyanın prokurorluq orqanlarına ötürülməsinə dair qərar qəbul edilir.

9.14. Təşkilatın işçisinin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilməsi məqsədilə müraciət faktının təsdiq edilmədiyi, lakin aparılmış yoxlama zamanı xidməti davranışla bağlı tələblərin pozulması əlamətləri və ya maraqların münaqişəsinin aşkarlandığı halda, yoxlama zamanı toplanmış materiallar, eləcə də rəy baxılmaq və müvafiq qərarın qəbul edilməsi üçün ictimai (müşahidə, himayədarlıq) şurasının iclasına (mövcud olduğu halda) göndərilir, eləcə də yoxlama sona çatdıqdan sonra iki iş günü ərzində intizam cəzasının tətbiq edilməsinə dair qərarın qəbul edilməsi üçün işəgötürənə təqdim edilir.

## 10. VASİTƏÇİLƏR VƏ DİGƏR ŞƏXSLƏRLƏ QARŞILIQLI FƏALİYYƏT, KONTRAGENTLƏRİN YOXLANMASI

10.1. “MONT TECHNOLOGY” MMC aşağıdakı prinsiplər əsasında onun üçün işlər və xidmətlərin yerinə yetirilməsi məqsədilə kontragentlərin seçimini həyata keçirir:

- bərabər hüquqluluq, ədalətlilik, kontragentlərlə münasibətdə ayrı-seçkiliyin və rəqabətin əsassız məhdudlaşdırılmasının olmaması;

- ən çox üstünlük verilən təkliflərin vicdanlı və ağlabatan seçimi;

- mallar, işlər, xidmətlərin əldə olunması üçün pul vəsaitinin məqsədli və iqtisadi baxımdan effektiv sərf edilməsi (zəruri olduqda, satın alınan məhsulun həyat siklinin dəyəri nəzərə alınmaqla) və təşkilatın xərclərinin azaldılmasına yönəldilmiş tədbirlərin gerçəkləşdirilməsi;

- korrupsiya təzahürləri, maraqların münaqişəsi və səlahiyyətlərdən digər sui-istifadənin qarşısının alınması.

10.2. “MONT TECHNOLOGY” MMC antikorrupsiya qanunvericiliyinin tələblərini dəstəkləyən kontragentlər və/və ya korrupsiyanın qəbul edilməməsini bəyan edən kontragentlərlə münasibətdə işgüzar münasibətlərə malik olmağa çalışır.

10.3. “MONT TECHNOLOGY” MMC bəyan edir ki, kontragentlərin işçilərinin hər hansı bir şəkildə, o cümlədən, pul məbləğlərinin, hədiyyələrin təqdim edilməsi, onların ünvanına işlərin (xidmətlərin) əvəzsiz yerinə yetirilməsi və burada adı çəkilməyən, kontragentin işçisini müəyyən asılılığa salan və həmin işçi tərəfindən təşkilatın xeyrinə hər hansı bir hərəkətlərin edilməsinin təmin edilməsinə yönəldilmiş digər üsullarla stimullaşdırılmasından imtina edir.

## 11. MƏLUMATLANDIRMA VƏ TƏLİM

11.1. "MONT TECHNOLOGY" MMC bu Siyasəti İnternet şəbəkəsində rəsmi saytda açıq şəkildə yerləşdirir, korrupsiyanın qəbuledilməzliyi haqqında açıq bəyan edir, bu Əsasnamənin prinsip və tələblərinə bütün kontragentlər, öz əməkdaşları və digər şəxslər tərəfindən riayət olunmasını alqışlayır və təşviq edir.

11.2. "MONT TECHNOLOGY" MMC işçilərin şirkətin antikorrupsiya siyasəti məsələləri ilə bağlı məlumatlılığının qorunub saxlanması və onların antikorrupsiya siyasətinin praktikada tətbiqi üsulları və metodlarına yiyələnməsi məqsədilə onların məlumatlandırılması və sistematik təlim keçməsi yolu ilə antikorrupsiya mədəniyyətinin səviyyəsinin yüksəldilməsinə yardım edir.

## 12. ANTİKORRUPSİYA TƏDBİRLƏRİ

12.1. Antikorrupsiya tədbirlərinə aşağıdakılar daxildir:

- etika və işçilərin xidməti davranış kodeksinin işlənib hazırlanması və qəbul edilməsi;

- korrupsiya və digər hüquq pozuntularının profilaktikasına görə məsuliyyət daşıyan bölmələr və ya vəzifəli şəxslərin müəyyən edilməsi;

- bağlanan müqavilələr üzrə antikorrupsiya ekspertizasının aparılması;

- işəgötürənin işçiləri tərəfindən korrupsiya pozuntularının törədilməsinə sövqetmə halları haqqında məlumatlandırma;

- işəgötürənin təşkilatın digər işçiləri, kontragentləri və ya digər şəxslərlə korrupsiya hüquq pozuntularının törədilməsi halları haqqında işçiyə məlum olmuş informasiya haqqında məlumatlandırılması;

- işəgötürənin maraqlar münaqişəsinin yaranması haqqında məlumatlandırılması;

- korrupsiyanın profilaktikası və ona qarşı mübarizə məsələləri üzrə təlim tədbirlərinin keçirilməsi;

- təşkilatın hüquq-mühafizə orqanları ilə əməkdaşlığı.

## 13. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ HÜQUQ-MÜHAFİZƏ ORQANLARI İLƏ ƏMƏKDAŞLIQ

13.1. Hüquq-mühafizə orqanları ilə əməkdaşlıq "MONT TECHNOLOGY" MMC-nin bəyan edilən antikorrupsiya davranış standartlarına həqiqi bağlılığının mühüm göstəricisidir. Bu əməkdaşlıq müxtəlif formalarda həyata keçirilə bilər:

- müvafiq hüquq-mühafizə orqanlarına təşkilatda məlum olmuş korrupsiya hüquq pozuntularının törədilməsi halları haqqında məlumat vermək lazımdır;

- nəzarət-yoxlama və hüquq-mühafizə orqanlarının səlahiyyətli nümayəndələrinə onlar tərəfindən korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə məsələləri üzrə təşkilatın fəaliyyətinin təftiş yoxlamalarının aparılması zamanı yardımın göstərilməsi;

- əməliyyat-axtarış tədbirləri də daxil olmaqla, korrupsiya cinayətlərinin qarşısının alınması və ya araşdırılması tədbirlərinin keçirilməsi zamanı hüquq-mühafizə orqanlarının səlahiyyətli nümayəndələrinə yardımın göstərilməsi;

- təşkilatın rəhbərliyi və əməkdaşları məhkəmə və ya hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri tərəfindən xidməti vəzifələrin yerinə yetirilməsinə müdaxiləyə yol verməməlidirlər.

## 14. MARAQLARIN MÜNAQİŞƏSİNİN QARŞISININ ALINMASI VƏ TƏNZİMLƏNMƏSİ QAYDASI

14.1. "MONT TECHNOLOGY" MMC-də maraqların münaqişəsinin idarə olunması işinin əsasını aşağıdakı prinsiplər təşkil etməlidir:

- maraqların real və ya potensial münaqişəsi haqqında məlumatların açıqlanmasının məcburiliyi;

- maraqların hər bir münaqişəsinin aşkarlanması və onun tənzimlənməsi zamanı təşkilat üçün reputasiya risklərinin fərdi şəkildə araşdırılması və qiymətləndirilməsi;

- maraqların münaqişəsi və onun tənzimlənməsi prosesi haqqında məlumatların açıqlanması prosesinin məxfiliyi;

- maraqların münaqişəsinin tənzimlənməsi zamanı təşkilat və işçinin maraqlarının balansına riayət olunması;

- işçinin onun tərəfindən vaxtında açılmış və müəssisə tərəfindən tənzimlənmiş (qarşısı alınmış) maraqlar münaqişəsi haqqında məlumatla bağlı təqibdən müdafiəsi.

14.2. Bu Əsasnamədə maraqların münaqişəsinin açıqlanması və tənzimlənməsi ilə bağlı işçilərin aşağıdakı vəzifələri təsbit edilmişdir:

- "MONT TECHNOLOGY" MMC-nin işçisi maraqların müdafiəsinin istənilən baş vermə mümkünlüyünə yol verilməmək üçün tədbirlər görməlidir;

- işgüzar məsələlər üzrə qərarların qəbul edilməsi və öz əmək vəzifələrinin yerinə yetirilməsi zamanı öz şəxsi maraqları, öz əməkdaşları və dostlarının maraqları nəzərə alınmadan təşkilatın maraqlarını rəhbər tutmalıdır;

- maraqların münaqişəsinə gətirib çıxara biləcək vəziyyət və hallardan çəkinməlidir;

- maraqların yaranmış (real) və ya potensial münaqişəsini açmalıdır;

- maraqların yaranmış münaqişəsinin tənzimlənməsinə yardım etməlidir.

14.3. "MONT TECHNOLOGY" MMC-də maraqların münaqişəsinin aşağıdakı açıqlanması növləri müəyyən edilmişdir:

- işə qəbul zamanı maraqların münaqişəsinə dair məlumatların açıqlanması;

- yeni vəzifəyə keçirilmə zamanı maraqların münaqişəsinə dair məlumatların açıqlanması;

- maraqların münaqişəsi vəziyyətləri yarandıqca məlumatların açıqlanması və s.

14.4. Təşkilatın işçisi öz bilavasitə rəisini yaranmış maraqlar münaqişəsi və ya bu barədə ona məlum olan kimi onun yaranma mümkünlüyü haqqında yazılı formada xəbərdar etməlidir. Təqdim edilmiş məlumatların baxılması və maraqların münaqişəsinin tənzimlənməsi məxfi şəkildə baş verir. Daxil olmuş informasiya təşkilat üçün yaranan risklərin ciddiliyinin qiymətləndirilməsi və maraqların münaqişəsinin tənzimlənməsinin ən münasib formasının seçilməsi məqsədilə diqqətlə yoxlanılır.

14.5. "MONT TECHNOLOGY" MMC işçi tərəfindən məlumat verilmiş vəziyyətin maraqlar münaqişəsi olmaması
və nəticədə xüsusi tənzimləmə üsullarına ehtiyacı olmaması nəticəsinə gələ bilər.

14.6. "MONT TECHNOLOGY" MMC həmçinin maraqlar münaqişəsinin baş verməsi nəticəsinə gələ və onun həllinin müxtəlif üsullarından istifadə edə bilər, o cümlədən:

- işçinin konkret informasiyaya girişinin məhdudlaşdırılması;

- təşkilatın işçisinin maraqlar münaqişəsinin təsiri altında olan və ya ola biləcək məsələlərin müzakirəsi və onlar üzrə qərarların qəbul edilməsi prosesində iştirakdan könüllü imtinası və ya kənarlaşdırılması (daimi və ya müvəqqəti);

- işçinin funksional vəzifələrinin yenidən baxılması və dəyişdirilməsi;

- işçinin şəxsi maraqlarının funksional vəzifələrlə ziddiyyət təşkil etdiyi halda, onun vəzifədən müvəqqəti kənarlaşdırılması;

- işçinin maraqlar münaqişəsi ilə bağlı funksional vəzifələrin yerinə yetirilməsini nəzərdə tutan vəzifəyə keçirilməsi;

- işçi tərəfindən maraqlar münaqişəsinin yaranması üçün əsas olan ona məxsus əmlakın etibarlı idarəetməyə verilməsi;

- işçinin təşkilatın maraqları ilə münaqişə doğuran şəxsi marağından imtinası;

- işçinin təşkilatdan işçinin təşəbbüsü ilə işdən çıxarılması;

- işçinin işəgötürənin təşəbbüsü ilə intizam əməlinin törədilməsinə, yəni işçi tərəfindən onun təqsiri üzündən üzərinə qoyulmuş əmək vəzifələrinin icra edilməməsi və ya lazımi şəkildə icra edilməməsinə görə işdən çıxarılması.

Maraqlar münaqişəsinin həlli üsullarının təqdim edilmiş siyahısı tam deyil. Hər bir konkret halda "MONT TECHNOLOGY" MMC və maraqlar münaqişəsinə dair məlumatları açıqlayan işçinin razılaşması ilə onuntənzimlənməsinin digər formaları tapıla bilər.

14.7. Yaranan (mövcud) maraqlar münaqişələri haqqında məlumatların qəbul edilməsinə görə məsuliyyəti təşkilatın korrupsiyaya qarşı mübarizəyə görə məsul struktur bölməsi və ya vəzifəli şəxsi daşıyır.

14.8. Alınmış informasiyanın baxılması kollegial olaraq aparılır. Baxış zamanı istər yuxarıda adı çəkilən şəxslər, istərsə də təşkilatın digər işçiləri iştirak edə bilərlər. Kollegiya yeddi iş günündən gec olmayaraq maraqlı şəxslərə maraqlar münaqişəsinin həllinə dair yazılı tövsiyələr verməlidir.

14.9. Kollegiya üzvü və maraqlı şəxsin eyni şəxs olduğu halda, bu cür kollegiya üzvü (üzvləri) maraqlar münaqişəsinin müzakirəsində və səsvermədə iştirak etmir. Maraqlar münaqişəsinin təşkilat rəhbərliyinə aid olduğu halda, o bu məsələ üzrə qərarların qəbulunda iştirak etmir.

14.10. Maraqlar münaqişəsinin yaranması mümkünlüyü və ya yaranması haqqında informasiya aşağıdakı hallarda maraqlar münaqişəsi haqqında bəyannamə (bu Əsasnaməyə əlavə) şəklində təqdim edilir:

işə qəbul zamanı, yeni vəzifəyə təyin edilən zaman, təşkilatda qəbul edilmiş biznesin aparılmasının etik normalarına riayət olunması ilə bağlı illik attestasiyaların aparılması zamanı, maraqlar münaqişəsinin yaranması zamanı.

14.10. Bu Əsasnamə yarana biləcək bütün mümkün maraqlar münaqişələrini təsvir etməyə cəhd etmir. Onlara maraqlı şəxsin şəxsi maraqlarının "MONT TECHNOLOGY" MMC-nin maraqlarına zidd olduğu istənilən şəraitdə əl atmaq lazımdır.

## 15. BU ƏSASNAMƏNİN YERİNƏ YETİRİLMƏMƏSİNƏ (LAZIMİ ŞƏKİLDƏ YERİNƏ YETİRİLMƏMƏSİNƏ) GÖRƏ MƏSULİYYƏT

15.1. "MONT TECHNOLOGY" MMC-nin rəhbəri və bütün bölmələrinin əməkdaşları tutulan vəzifədən asılı olmayaraq, bu Əsasnamənin prinsip və tələblərinə riayət olunmasına, eləcə də onlara tabe olan şəxslərin bu prinsip və tələbləri pozan hərəkətlərinə (hərəkətsizliyinə) görə qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyəti daşıyırlar.

15.2. Bu Əsasnamənin tələblərinin pozulmasında təqsirli olan şəxslər "MONT TECHNOLOGY" MMC, hüquq- mühafizə orqanları və ya digər şəxslərin təşəbbüsü ilə Azərbaycan Respublikasının qanunvericiliyi, lokal normativ aktlar və əmək müqavilələri ilə nəzərdə tutulmuş qaydada və əsaslarla intizam, inzibati, mülki-hüquq və ya cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

**İşçilərin korrupsiya hüquq pozuntularının törədilməsinə sövq edilməsi məqsədilə müraciət faktları haqqında bildirişlərin qeydiyyatı və uçotu jurnalı**

**Forması**

| № s/n | Qeydiyyat tarixi | Bildiriş verən haqqında məlumatlar | Müraciət tarixi və yeri. İşin hallarının qısa şərhi | Yoxlamanın keçirilməsinə dair qərar (tarix, nömrə) | Yoxlama nəticələrinə əsasən qəbul edilmiş qərar | Materialların prokurorluq orqanlarına göndərilməsi tarixi və çıxış nömrəsi | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1 | | | | | | | |